# Fədakar alim



Qədim filosoflar deyiblər ki, hər bir insan övladı dünyaya öz missiyası ilə gəlir. Ancaq həm həyatda insan olmağı bacarmaq, həm də işində uğur qazanmaq hər kəsə nəsib olmur. Belə insanlar Tanrının sevdiyi və seçdiyi bəndələridir. Bu yazıda söhbət açacağım şəxs də məhz belə insanlardandır...

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin baş direktoru, "Əməkdar elm xadimi" Qurban Yetirmişli indi ömrün müdriklik zirvəsindədir. Qurban müəllim illər boyu seysmologiya sahəsinin inkişafına böyük töhfələr vermişdir. Heç bir mübaliğəsiz demək olar ki, bu gün nəinki Azərbaycanda, MDB məkanında, Avropada, Amerikada elmi dairələrdə Qurban Yetirmişli Azərbaycanın dəyərli alimi kimi tanınır. Dünyanın aparıcı elmi nəşrlərində onun onlarla elmi məqaləsi dərc olunmuşdur.

Qurban Cəlal oğlu Yetirmişli 4 sentyabr 1952-ci ildə anadan olmuşdur. Uşaqlığı və məktəb illəri qədim Azərbaycan torpağı olan Borçalı mahalında - Marnuelidə keçib. Bəlkə də bu torpağın havasından, suyundandır, ordan olan insanlar elmə, ədəbiyyata olan maraqları ilə hər zaman seçilir, diqqət çəkirlər. Azərbaycan dili və ədəbiyyatı, tarix və başqa sahələrdə mükəmməl biliyi olan Q.Yetirmişlinin bəlkə də o zamanlar Azərbaycan Dövlət Universitetinin geologiya fakültəsini seçməsi çoxları üçün qəribə görünmüşdü. Lakin o, öz qəti seçimini etmiş və elm yolunda cığırını açmağa başlamışdı. 1974-cü ildə Azərbaycan Dövlət Universitetinin geologiya fakültəsini bitirən Qurban müəllim 2008-ci ilə qədər AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzində baş direktorun müavini kimi fəaliyyət göstərib, 2008-ci ildən mərkəzin baş direktorudur.

Q.Yetirmişli geodinamik, seysmoaktiv şəraiti mürəkkəb olan zonalarda, dərin qatlarda neft-qazlılığın qiymətləndirilməsi və perspektivliyi haqqında (Aşağı Kür çökəkliyi) bir sıra elmi-nəzəri işlərin və çoxsaylı elmi məqalənin müəllifidir.

2000-ci ildə "Aşağı Kür çökəkliyində seysmo-geodinamik şərait və kəsilişlərdə neft və qaz yataqlarının paylanması" mövzusunda namizədlik dissertasiyasını müdafiə edən Qurban Yetirmişli 2010-cu ildə "Cənubi Xəzər çökəkliyinin seysmikliyi (Azərbaycan sektoru)" mövzusunda doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək, geologiya-mineralogiya elmləri doktoru elmi dərəcəsini almışdır. 2014-cü ildə AMEA-nın müxbir üzvü seçilib.

"Azərbaycan ərazisində seysmoproqun öz müşahidələri" elmi jurnalının baş redaktoru, AMEA nəzdində RSXM-in Elmi-Texniki Şurasının sədri, Avropa Seysmoloji Komissiyasının üzvüdür. 2003-cü ildə AMEA Rəyasət Heyəti tərəfindən 50 illik yubileyi münasibəti ilə "Fəxri Fərman"la, 2005-ci ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Tərəqqi" medalı, 2015-ci ildə "Avropa nəşr evi" tərəfindən "İlin vətənpərvər alimi" qızıl medalı ilə təltif edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Azərbaycan Seysmoloqlar Assosiasiyasının prezidentidir.

Elm sahəsində yüksək nəticələrə nail olan dəyərli alim həm də gözəl elm təşkilatçısıdır. Bu gün onun rəhbərliyi altında ondan çox doktorant və dissertant mərkəzdə elmi tədqiqatlarını davam etdirir.

Qurban Yetirmişli tanınmış alim, həm də yaxşı təşkilatçı, rəhbərdir. Onun RSXM-ə rəhbərliyi altında MDB məkanında ilk dəfə olaraq Azərbaycanda peyk rabitəsi ilə işləyən seysmik stansiyalar şəbəkəsi genişləndirilmişdir. Hazırda respublika ərazisində 35 daimi, 7 stasionar seysmik stansiya fəaliyyət göstərir. Bundan başqa respublika ərazisində 22 GPS stansiyalar da quraşdırılıb ki, həmin stansiyalar vasitəsi ilə yerin dərin qatlarında gedən geoloji proseslər öyrənilir. Q.Yetirmişlinin təşəbbüsü ilə GPS stansiyalardan biri - Saatlı rayonundakı dərinliyi 8324 metr olan quyu üzərində quraşdırılmışdır. Respublika ərazisində həmçinin RSXM-nin geofiziki və geokimyəvi stansiyaları da fəaliyyət göstərir və bütün stansiyalardan alınan məlumatlar əsasında mərkəzdə kompleks seysmoloji tədqiqatlar aparılır. AMEA nəzdində RSXM-nin Naxçıvan Muxtar Respublikasında da mərkəzi açılmışdır və həmin mərkəzdə alınmış məlumatların emalı həyata keçirilir. Hazırda quruda daha beş seysmik stansiyanın açılması istiqamətində işlər davam etdirilir. MDB məkanında ilk dəfə olaraq Mərkəz tərəfindən dənizdibi seysmik stansiyaların quraşdırılması üçün stansiyalar alınıb. Həmin stansiyaların quraşdırılması ilə bağlı müəyyən çətinliklər olmasına baxmayaraq seysmoloqlar bu problemin də həll ediləcəyinə əmindirlər.

Qeyd edək ki, bu gün Azərbaycan dünya məkanına inteqrasiya edən ölkələrdən biri olduğuna görə bütün sahələr kimi seysmologiya sahəsində də beynəlxalq əməkdaşlıq məsələləri mühüm əhəmiyyət daşıyır. Bu gün AMEA nəzdində RSXM dünyanın 20-dən çox aparıcı ölkəsi ilə yaxından əməkdaşlıq edir. Mühüm beynəlxalq seysmoloji təşkilatların - Birləşmiş Seysmoloji Tədqiqatlar İnstitutu (İRİS) ABŞ, Avropa Seysmoloji Müşahidə və Tədqiqatlar Mərkəzi (ORFEUS), Amerika Geofizika Birliyi (AGB), Avropa və Aralıq dənizi Seysmoloji Mərkəzi (EMSC) və Avropa Seysmoloji Komissiyasının (ESC) üzvüdür.

Respublika Seysmoloji Xidmət Mərkəzi tərəfindən Azərbaycanda dünyanın nüfuzlu alimlərinin iştirakı ilə bir çox beynəlxalq konfrans və seminarlar keçirilib. Bu ilin oktyabr ayında (23-27 oktyabr) RSXM 30-a yaxın xarici ölkəni və beynəlxalq seysmoloji təşkilatı təmsil edən alimlərin iştirakı ilə, ABŞ-ın Enerji Departamenti və Beynəlxalq Levermor Laboratoriyasının dəstəyi ilə daha bir beynəlxalq konfransa ev sahibliyi edəcək.

RSXM-də bu gün əsas istiqamətlərdən biri də gənc kadrların hazırlanmasıdır. Q.Yetirmişlinin təşəbbüsü ilə RSXM-ə onlarla gənc mütəxəssis işə qəbul edilib. Gənc kadrların biliklərinin təkmilləşdirilməsi üçün Mərkəzdə ixtisas və dil kursları təşkil edilmişdir. Gənc kadrların təcrübə mübadiləsi sahəsinə də xüsusi diqqət yetirilir. RSXM-nin bir neçə gənc əməkdaşı ABŞ, Türkiyə, Gürcüstan, Almaniya, İtaliya və başqa ölkələrdə təlimlərdə iştirak ediblər.

Həmçinin regionlarda yeni stansiyaların açılması "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində yerli əhalinin işlə təmin olunmasına imkan verib. Bu gün RSXM-də çalışan əməkdaşların təxminən yarısı regionların payına düşür.

İstər respublika ərazisində baş verən, istərsə də dünyanın başqa ölkələrində olan zəlzələlər RSXM-nin Monitorinq Mərkəzi tərəfindən "online" rejimində qeydə alınır. Baş verən zəlzələlərlə bağlı ictimaiyyətin və direktiv orqanların məlumatlandırılması operativ şəkildə həyata keçirilir.

Bütün bunlar isə Azərbaycan seysmologiyasının gələcəyinin daha parlaq olacağını deməyə əsas verir. Birmənalı şəkildə demək lazımdır ki, bu gün əldə olunan uğurların və nəticələrin arxasında böyük zəhmət, əmək durur. Bu uğurların əldə olunmasında RSXM-nin baş direktoru Qurban Yetirmişlinin müstəsna və əvəzedilməz xidmətləri vardır.

**Vüsalə RAFİQQIZI,**
**AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin informasiya şöbəsinin müdiri.**

# "Qarabağ" komandası UEFA Çempionlar Liqasının qrup mərhələsində ilk qolunu vurub

**Sentyabrın 27-də UEFA Çempionlar Liqasının qrup mərhələsinin ikinci turunda "C" qrupunda yer alan Ağdamın "Qarabağ" komandası İtaliyanın "Roma" klubu ilə qarşılaşıb.**

AZƏRTAC xəbər verir ki, Bakı Olimpiya Stadionunda keçirilən oyun qonaqların minimal hesablı üstünlüyü ilə başa çatıb.



Portuqaliyalı baş hakim Artur Diasın idarə etdiyi qarşılaşmada hesab erkən qol-la açılıb. Matçın 7-ci dəqiqəsində "Roma"nın futbolçuları künc zərbəsindən sonra hesabı açıblar. Lorenzo Pelleqrininin ötürməsindən sonra "Qarabağ"ın qapıçısı İbrahim Şehiçin səhvindən istifadə edən Kostas Manolas topu başla qapıdan keçirib - 0:1. Matçın 15-ci dəqiqəsində italiyalılar hesab arasındakı fərqi artırıblar. El Şaravinin ötürməsindən sonra topu sinəsi ilə ram edən Edin Dzeko dəqiq zərbə vuraraq hesab arasındakı fərqi iki topa çatdırıb - 0:2.



Oyunun 28-ci dəqiqəsində "Qarabağ" komandası hesab arasındakı fərqi azaldıb. Pressinq edərək rəqib müdafiəçidən topu alan Dino Ndlovu komanda yoldaşı Pedro Enrikəyə ötürmə edib. Gözəl ötürmədən sonra qapıçı ilə təkbətək qalan Pedro Enrike dəqiq zərbə ilə "Qarabağ"ın UEFA Çempionlar Liqasının qrup mərhələsində ilk qolunu qapıdan keçirib - 1:2.

Oyunun ilk hissəsi bu hesabla başa çatıb.

Qarşılaşmanın ikinci hissəsinə daha fəal başlayan Ağdam təmsilçisi rəqibin qapısı qarşısında bir neçə təhlükəli vəziyyət yaradıb. Belə hücumların birində - matçın 50-ci dəqiqəsində Miçelin qüvvətli zərbəsi qapının üstündən keçib.

Üç dəqiqə sonra İbrahim Şehiç "Roma"nın futbolçusu Pelleqrininin güclü zərbəsini dəf edib.

Matçın 60-cı dəqiqəsində Bruno Peres "Qarabağ"ın qapıçısı ilə təkbətək çıxsa da, İbrahim Şehiç komandasını qoldan xilas edib.

Qarşılaşmanın 89-cu dəqiqəsində ağdamlıların növbəti təhlükəli hücumu zamanı Ansi Aqollinin ötürməsindən sonra Dino Ndlovunun başla zərbəsi qapı dirəyindən bir qədər aralı keçib. Bu, oyunda sonuncu təhlükəli qol vəziyyəti olub.

Beləliklə, "Qarabağ" - "Roma" oyunu italiyalıların minimal hesablı üstünlüyü ilə başa çatıb - 1:2.

Qeyd edək ki, bu oyun Azərbaycan futbolu tarixində ən çox biletin satıldığı qarşılaşmadır. Oyunla əlaqədar 67 mindən çox bilet satılıb.

**AZƏRTAC**